# Şəkidə tərəvəz yetişdirilən istixanada həyata keçirilən monitorinqə dair məlumat

**(28 iyul 2023)**

Agentliyin Şəki-Zaqatala regional bölməsinin müfəttişləri tərəfindən Şəki rayonu ərazisində tərəvəz yetişdirilən istixanada monitorinq aparılıb. Monitorinq zamanı bitkilərin fitosanitar vəziyyəti qiymətləndirilib, istehsalçıya fitosanitar tələblərə uyğun məhsul yetişdirilməsinə dair müvafiq tövsiyələr verilib. Həmçinin pestisidlərlə işləyərkən təhlükəsizlik və şəxsi gigiyena qaydalarına əməl olunmasının vacibliyi sahibkarın diqqətinə çatdırılıb, ona maarifləndirici bukletlər təqdim edilib. Eyni zamanda, torpaqda pestisid qalıqlarının miqdarının müəyyənləşdirilməsi məqsədi ilə nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına göndərilib.